# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 73** **Bakı şəhəri, 7 mart 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 10 iyun tarixli 111 nömrəli Qərarı ilə təsdiq edilmiş "Çətin həyat şəraitində hesab edilmənin əsasları üzrə şəxsin (ailənin) çətin həyat şəraitində olmasını təsdiq edən sənədlərin. Siyahısı"nda dəyişiklik edilməsi haqqında***

"Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 27 dekabr tarixli 464-VIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikasının Ailə Məcəllə-sinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 6 mart tarixli 297 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 31 yanvar tarixli 1583 nömrəli Fərmanının 3-cü hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 10 iyun tarixli 111 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 6, maddə 725; 2017, № 2, maddə 325; 2019, № 3, maddə 518; 2020, № 4, maddə 495; 2021, № 6 (IV kitab), maddə 667, № 11, maddə 1264; 2022, № 10, maddə 1221) ilə təsdiq edilmiş "Çətin həyat şəraitində hesab edilmənin əsasları üzrə şəxsin (ailənin) çətin həyat şəraitində olmasını təsdiq edən sənədlərin siyahısı"nın 2.1.1-ci yarımbəndindən "rayon (şəhər)" sözləri çıxarılsın.

**Əli ƏSƏDOV,**
**Azərbaycan Respublikasının**
**Baş naziri**

---

Xalq qəzeti.- 2023.- 11 mart.- S.10.